**Hicran Əhməd qızı Əhməd** [61]

# HÜSEYN NİHAL ATSIZ VƏ RÜSTƏM BEHRUDİ YARADICILIĞINDA KÜR ŞAD OBRAZI

**Giriş.** XX yüzildə Türk milliyətçiliyi fikrinin Ziya Göyalpdan sonra en quvvətli təmsilçisi türkçü və turançı Hüseyn Nihal Atsızın "Bozqurdların ölümü" və "Bozqurdlar dirilir" əsərlərinin qəhrəmanı, adı tarixdə çox az çəkilən, lakin türk irqini kökündən qurutmaq, türkləri çinliləşdirmək istəyən Çin İmperatorluğuna qarşı 40 silahdaşı ilə üsyan edən Kür Şad qüsursuz, 1-ci qəhrəmandır. O, nə böyük ölkələr aldı, nə qanunlar qoydu, nə də kasıb əhalinin güzaranını yaxşılaşdırdı, tarixin hər hansı bir səhifəsində kiçik bir həyat məlumatı ilə yer alan Kür Şad çinlilərlə nisbətsiz çarpışmada düşmənin ürəyinə, ruhuna hücum etdi, onların ürəyində elə bir qorxu və dəhşət yaratdı ki, çinlilər Çində əsir olan bütün türklərin Türk obalarına göndərilməsindən başqa bir şey düşünmədilər və Kür Şadın üsyanından sonra bunu etdilər, türkləri çinliləşdirmək siyasətinə müvəffəq ola bilmədilər.

Heç bir tarixi qəhrəman Kür Şad kimi böyük bir məqsədlə, qorxmazlıq, igidlik və cəsarətlə öz yurdundan çox uzaqlarda əsiri olduğu bir məmləkətdə 40 nəfərlə ölümünü gözə alaraq çarpışmaya girməmişdir. Bu çarpışma qələbə ilə bitməsə belə ən böyük qəhrəmanlıq olaraq türk millətinə əbədi şan və şərəf qazandırdı, türk millətinin tarixdən silinməsinnin qarşısı alındı. Göy Türklərin tarixini "Bozqurdların ölümü" və "Bozqurdlar dirilir" əsərlərində bədiiləşdirən Hüseyn Nihal Atsız Kür Şadı publisistik məqalələrində "cahan tarixinin ən böyük qəhrəmanı" və "ən böyük türk qəhrəmanı Kür Şad" adlandıraraq alovların, işıqların, mehtabların və yanardağların yanında parlaması və sönməsini düşən ulduzlara bənzədir, lakin bu düşən ulduzun işığı tarixin gedişini dəyişdirdi, qısa aydınlıqda Kür Şad və onun 40 nəfər yurd fədaisinin türk yurdlarının yenidən canlanması üçün etdikləri qəhrəmanlıqları əbədiləşdirdi (3, s. 24).

Kür Şad yoldaşları öldürüldükdən sonra da köksündən, üzündən, boynundan qan axsa belə məğlub olmaq istəmir, çarpışır, vuruşurdu, ölüm pərisinin onun əlinə verdiyi qədəhi gözünü qırpmadan içmiş, Kür Şad ölmüş, lakin qılıncı əlində atından yıxılıb düşməmişdi (1, s. 356). Hüseyn Nihal Atsız tarixin bu qəhrəmanlıq anını bədii vasitələrlə o qədər canlı, obrazlı və təsirli əbədiləşdirmişdir ki, Kür Şad və onun 40 silahdaşının ruhunun Tanrı Dağından "daha nə qədər gözləyəcəyik?" söyləmələrinin bir həqiqət olduğuna inanmamaq mümkün deyil.

41 şəhidin ətrafına bir anda toplaşan yüz minlərlə şəhidin Tanrının hüzurundan əzəmətli və tükürpədici bir türkü oxuyaraq rəsmi keçidi kainatı titrətdi:

Dəlinsə yer, çöksə göy, yansa, kül olsa dörd yan,
Uca diləyə doğru yol gedirik hər zaman,
İldırımdan, borandan, qasırğadan qorxmayan,
Ölümlərlə əylənən tunc ürəkli Türklərik! (1, s. 358)

Kür Şad və onun silahdaşlarının üfiqlərə baxaraq aylı-ulduzlu qızıl bayrağı gözlədiyi qədər Nihal Atsız da dünənki Türk ellərində Türklük ruhunu əriyib sönməyə qoymayan Kür Şad və silahdaşları üçün abidə olmasını düşünür. Həmin abidənin önündə Kür Şada və silahdaşlarına saygı olaraq börk və çəkmə geyinmiş, qılıc və sadak taxmış türk gənclərinin dik addımlarla rəsmi keçidini, Kür Şadla yoldaşlarının yaralarından hələ də qan axsa belə gülümsəyərək salam aldıqlarını və hər yerdən "yaxında gələcəyik" deyə yüksələn haykırışlarını düşünür. Hüseyn Nihal Atsız Kür Şadın 13 yaşlı qızına atasının kəsilmiş başını göstərərkən göz yaşları içində "Yurd və Şərəf üçün" deməsini qələmə almaqla bəşər tarixinə türklərinn necə yurdsevər, şərəfli, qadınlarının belə kimsəyə baş əymədiyini göstərmişdir. Qəhrmanlıq türk millətinin təbiətindədir.

Hüseyn Nihal Atsız "Cahan tarixinin ən böyük qəhrəmanı" məqaləsində yazır: "cahan tarixində, xüsusilə də Türk tarixində bir çox qəhrəmanlar olmuşdur, bunlardan bəzilərinin şöhrəti dünyanı tutmuş, kimisi böyük fəthlər etmiş, kimisi şanlı bir müdafiənin qəhrəmanı olmuşdur, lakin bu qəhrəmanlar böyük olsalar da şəhvət hissi, şəxsi hissi, şəxsi uğurları üçün törətdikləri cinayətlər və bəzilərinin də qadınlara alət olaraq düşdükləri yanlışlıqlar olmasaydı onlar bizim gözümüzdə daha böyük olacakdılar. Kür Şad isə onların heç birinə bənzəmir, o cahan tarixinin birinci qəhrəmanıdır, Kür Şadda bu kiçikliklər yoxdur (3, s. 19). Tarixdə heç bir qəhrəman Kür Şad kimi böyük bir məqsədlə, onun qədər şərtlər içində çarpışmamışdır. Hökmdarlara saraylardan kənarda sui-qəsdlər edənlər olub, lakin əsiri olduğu məmləkətin sarayına hücum etmək heç bir yerdə olmamışdır (3, s. 20). 40 adamla qüvvətli bir məmləkətin hökmdarına hücum etmək hər qırx qəhrəmanın edəcəyi iş deyil. Nihal Atsız Kür Şadın bu hərəkətini çılğınlıq adlandıranları qəhrəmanlığın nə demək olduğunu anlamayan, qəhrəmanlığa qiymət verə bilməyənləri "zavallılar" adlandırır, mənsub olduğu millətini qurtarmaq üçün həyatından keçərək torpağa düşməyin qartal kimi göyə yüksəlmək olduğunu yerdə zahifə kimi sürünənlərin anlaya bilməyəcəklərini bildirir(3, s. 20).

Tarixin hər hansı bir səhifəsində ilişib qalmış bir neçə sətirlik məlumatdan Türk millətini məhv olmaqdan qurtaran Kür Şadın böyük rolunu çıxara bilmək cox çətin bir işdir. Nihal Atsız bunu etmiş, Türk milləti var olduqca öz xilaskarı olan qəhrəmanını nəsillərin tanıması üçün onun əbədiləşdirilməsini arzulamışdır.

Kür Şad hökmdar sülaləsindəndir, o özünün böyük planını yerinə yetirdikdən sonra taxtda otura bilərdi, qəhrəmanlığı hər zaman qiymətləndirməyi bilən Türk milləti də onu özünə Xaqan seçərdi, lakin Kür Şad bunu düşünmədi belə, yalnız milləti üçün, öz qanı bahasına başqasını taxta çıxartmaq üçün böyük savaşa başladı. Kür

[61] AMEA Nizami adına Ədəbiyyat İnstitutunun dissertantı. E-mail: ahmedova_hicran@mail.ru

Şadın bu hərəkatı qalibiyyətlə bitməsə belə o bugünkü Türklərə əbədi bir şan və şərəf qazandırmış oldu, Kür Şadın qəhrəmancasına hücumu olmasaydı çinlilər Türkləri çinliləşdirmək siyasətinə müvəffəq olacaqdılar.

Nihal Atsız " Bozqurdlar ölür, dirilir" kitabının son hissəsində yazır: " yağılar Kür Şadın igid başını gövdəsindən ayırıb Çin kağanına apardılar. Çin kağanı, bütün saray əhli ondan tir-tir əsmişdi. Bu titrəyişin səbəbi təkcə Kür Şad deyildi, həm də onu yetişdirən bir xalq idi" Kür Şad öz ölümü ilə bütün xalqını köləlikdən, qorxudan qurtarmışdı" (1, s. 357). Bəli, qəhrəmanlıq türk xalqı üçün bir təbiət, fəzilət və vərdişdir. "Qəhrəmanlar azadlıq uğruna ölürlər ki, azadlığı gələcək nəsillər üçün dirildə bilsinlər (1, s. 5). Gələcək həyatı qorumaq və yaşatmaq üçün özünü qurban verə bilmək fədəkarlığı yalnız türklərə məxsus olan xüsusiyyətdir. Türk qadınlarının məğrurluğu isə tarixdən məlumdur. Kür Şadın ocağını sonadək söndürmək üçün çinlilər üsyandan sonra bütün şəhəri axtarmış, Kür Şadın həyat yoldaşı türk soyunun qorunması naminə 4 yaşlı oğlunu götürərək naməlum bir yerə çıxıb getmiş, Kür Şadın 13 yaşlı qızı evdə qalmışdı. Çinlilər atasının kəsilmiş başını Kür Şadın qızına göstərərək sağ qalmaq müqabilində bildiklərini söyləməyi təklif etmişdilər, lakin Kür Şadın qızı göz yaşları içində "Yurd və Şərəf üçün" deyərək susmuşdur (1, s. 357). Əslində bu 13 yaşlı qızın üsyandan xəbəri var idi. Hüseyn Nihal Atsızın əsərdə təsvir etdiyi bu səhnə türk millətinin nəinki igidlərinin, hətta qız uşaqlarının da qorxmaz, millətinə sadiq, məğrur və hazırcavab olduğunu göstərir. Hüseyn Nihal Atsız "Bozqurdların ölümü" əsərinin bir bölməsində qeyd edir ki, çinlilər əsgər olmaq deyil, toxumaq, məhsul yetişdirmək və filosof olmaq üçün yaradılmiş yarımçıq adamlar idi, halbuki türklərin kiçik uşaqları belə çinli əsgərlərdən daha yaxşı döyüş üsulları bilir, 8 yaşlı bir qız uşağı ox atmaqda, at minməkdə çinlilərdən daha üstündür (1, s. 313). Göy Türk üçün atın yəhərinin olub olmamasının elə bir fərqi olmamışdır, bildikləri şey türk şərəfini qorumaq üçün silaha sarılmaq olmuşdur. Hüseyn Nihal Atsızın "Bozqurdlar ölür, dirilir" əsəri bir qəhrəmanlıq dastanıdır.

Kür Şadın üsyanı tarixdə geniş yer almasa da bu hərəkət türklərin əsarət altında qalmayan bir millət olduğunu sübut etdi. Nihal Atsız "Bozqurdlar dirilir" kitabında yazır ki, Çin xaqanı bu hadisədən sonra qorxurdu, hələ gün batdıqdan sonra hər qaraltı, hər kölgə onu vahimələndirir, uğursuz üsyançılardan birinin qaranlıqlar içindən çıxaraq yay gərib ox atdığını düşünürdü. Çin xaqanı bu qədər böyük bir gurultunun 41 nəfərlə salındığına inana bimirdi. Bu üsyançılar nə qədər çılğın olurlarsa olsunlar 300-dən çox Çin əsgərini öldürmək və böyük bir şəhərə bu qədər qorxu sala bilmək üçün hər halda ən azı bir neçə yüz nəfər olmalıydılar (1, s. 359). Öz doğma şəhərlərində nəinki çınlı əhalini, hətta Çin xaqanını belə vahiməyə salan Kür Şad hərəkatı əslində məğlub olmamışdı, türklərin Çinin içərisində qalmaqla onlara təhlükə olduqlarını anlayan Çin xaqanı və onun tərəfdaşları türklərin yenidən əski yurdlarına göndərilməsini qərara almışdılar. Bu gün tarixdə bir epizod olaraq qalan Kür Sad hərəkatını dərindən təhlil etsək Kür Şad və onun 40 silahdaşı XXI əsrdə dünyanın hər yerinə səpələnmiş türk millətinin xilaskarı, onun yer üzündən silinməsinin qarşısını alan qəhrəmanlardırlar. Kür Şad və 40 qəhrəman tarix səhnəsində epizodik rol alsalar belə Hüseyn Nihal Atsızın "Bozqurdların ölümü" və "Bozqurdlar dirilir" romanlarında bu qəhrəmanlar adlarına dastanlar yazılacaq türk igidləri olaraq təsvir edilir. Kür Şadın ömür gün yoldaşı türk qadınlarının simvoludur, hətta onu yaşadıqları obanın ruhu adlandırırlar. Kür Şad üsyanından sonra türk soyunu qorumaq üçün dörd yaşlı oğlunu götürüb qaçan ana bütün olacaq təhlükələri sovuşdurmaq üçün dörd yaşlı uşağa hər şeyi unutdurmaq, o qədər unutdurmağa çalışırdı ki, hətta ona danışmağı belə qadağan etmiş, illərlə, son nəfəsinə qədər özünün, övladının kim olduğunu oğlundan gizləmiş, onu böyüdüb ər kişi etmək üçün yaşamışdı. Bir gün Ötükənə, o mübarək yerə dönəcəyinə ürəyində həmişə ümid işığı olmuşdur (1, s. 365). Hüseyn Nihal Atsız "Bozqurdlar dirilir" romanında yazır: "Öldüyüm zaman soyuyub donmuş ürəyimi yarıb açan olsa ordakı qığılcımı görər. O qığılcımın üstündə Ötükənin xəyalı da vardır!" (1, s. 366). Əsərdə nəinki türk igidlərinin vətəninə, millətinə bağlılığı, sədaqəti, hətta Kür Şadın ömür-gün yoldaşının timsalında bütün türk qadınlarının öz millətinə və ər igidlərinə sədaqəti və fədakarlığı diqqət mərkəzindədir. Üsyana gedərkən Kür Şadın həyat yoldaşına verdiyi Bozqurd soyunun tilsimli bıçağını illərlə göz bəbəyi kimi qoruyaraq oğluna vermiş, yalnız ölüm yatağında olarkən bütün sirləri oğlüna danışan, xaqan soyundan olan oğlunu çinlilərdən qorumaq üçün 13 yaşlı qızını qurban verən, övladlarının həqiqi adlarını unutmağa özünü məcbur edən qadın yalnız Türk qadını ola bilərdi. Kür Şadın oğlu fəxrlə daşıdığı bu bıçağın ilk Türk xaqanı Bumun Kağandan qaldığını, üzərində Bumun Kağanın adının və damğasının həkk olduğundan anasının bu sirri açana qədər məlumatı olmamışdır. Kür Şadın xatunu türk igidlərindən at çapmaqda, ox atıb, qılınc oynatmaqda geri qalmayan türk qadını olaraq oğluna nəsihət verir: "Kağan olmaq haqqı ola-ola atan bu haqdan vaz keçərək vuruşdu, əgər sən də atana layiq oğul olmaq istəyirsənsə Bozqurd soyundan olduğunu kimsəyə söyləmədən yaşa. Bayrağımızın Qurdbaşlı dirəyi Ötükəndə dikilincəyə qədər vuruş" (1, s. 367).

Hüseyn Nihal Atsızın "Bozqurdların ölümü", "Bozqurdlar dirilir" romanları şifahi xalq ədəbiyyatının dastan janrının qəhrəmanlıq növünə aid etmək olar, burada həm nəsr, həm də nəzm hissələri vardır. İgidlərin qəhrəmanlığı nəsrlə təsvir olunduğu kimi Qara Ozanın Kür Şad və onun üsyandanın sonra sağ qalan yoldaşlarının Vey çayını keçməsi üçün Çin qoşununun qarşısına çıxaraq gecənin qaranlığında, yağışın altında qopuz çalıb özünü oxumağa məcbur etməsi Kür Şad və 40 igidin son halını nəzmlə ifadə etməsi romanın, həm də qəhrəmanlıq dastanı olmağına heç şübhə doğurmur.

Bozqurd bizim ünümüz,. Qırx əsgərdi varımız.
Şan qoludur dünümüz, Düşüb qaldı yarımız.
Yetincə son günümüz, Baş qoyacaq yerimiz,
Başdan çıxan son olur. Qara yerlə daş olur.
Qara Ozan söz üzün,

Fəryadı çox qopuzun,
Bir-bir andıqca, gözün
Qanlı-qanlı yaş olur (1, s. 351).

Hüseyn Nihal Atsız Türk millətinin tarixini misralarında canlandıran, türk duyğusunun nə demək olduğunun açıqlamasını verən türkçü bir şairdir. O, mahir bir şair kimi şeirlərində türk igidlərinin qəhrəmanlıq fəlsəfəsini yaratdı: "Qəhrəmanlıq nə yalnız bir yüksəliş deməkdir, nə də ulduzlar kimi parlayıb sönməməkdir.... Bunun üçün ölümə bir atılış deməkdir. Atıldıqdan sonra da bir daha dönməməkdir" (7, s. 4). Kür şad məhz belə qəhrəmanlardandır.

Hüseyn Nihal Atsızın fikri yazıları, hekayələri, tarixi romanlarından başqa Türk gəncliyi üzərində ən təsirli ədəbi məhsulu şeirləridir. Atsızın şeirlərində dastanların böyük təsiri vardır. Bir çox epik şeirlərində Türk dastanlarının qəhrəmanlarının isminin yer aldığını görürük. Yurd və vətən anlayışları Atsızın şeirlərində önəmli bir yer tutur. Vətən deyilən torpaqlar şəhidlik mərtəbəsi ilə anlam qazanır.

Şehidlerden elli milyon bekçisi olan,
Aşılmaz bir kayadır bu ebedi Vatan (2, s. 66).

Atsıza görə Türk tarixi özü bir qəhrəmanlıq şeiridir.

Türk tarihi denilen kahramanlık şiirini,
Yeniden yazmak için harcayacağın kandır (2, s. 45).

Hüseyn Nihal Atsız həyatı ideal üğrunda bir savaş adlandırır.

Savaş türküleriyle aylı kızıl bayrağı,
Kefensiz ölülerin ruhunu özleyen var (2, s. 43).

Atsız qəhrəmanlığı və qəhrəmanları, şəhidləri və qaziləri ən uca məqamda görür, şəhidlik mərtəbəsini qəhrəmanlıq və fədəkarlığın ən böyük göstəricisi və ən üstün mövqe bilir (2, s. 35).

Türk tarixinə son dərəcə vaqif olan Hüseyn Nihal Atsız şeirlərində gənclərə milli ruhu və milli şüuru aşılamaq üçün Kül Tekin, Tonyukuk, Mete, Atilla, Alparslan, Çağrı Bəy, Kılıçarslan və Kür Şad kimi milli qəhrəmanlardan söz açır. O, qəhrəmanca yaşamağı bir həyat biçimi, yaşama tərzi olaraq görür, amma bu qəhrəmanlıq şan-şöhrət, zənginlik qazanmaq üçün deyildir. "Kahramanlar can verir, yurdu yaşatmaq için" (2, s. 54).

Vətəni vətən edən adı olmayan şəhidlərdir, onlar şan-şöhrət düşünməz, adsız qalmağa üstünlük verərlər. Bəlkə Hüseyn Nihal Atsız da bunun üçün Atsız soyadını seçmişdir (2, s. 36).

Ebedi yigit!
Adı yok şehit!
Kefenin: Vatan...
Tabutun: Cihan... (2, s. 72).

Nihal Atsız şeirlərində yaşamağın bir həyat tərzi olduğunu göstərdiyi kimi yaşamağın bir vəzifə yerinə yetirmək olduğunu da gənclərə aşılayır, yalnız zövq və əyləncəyə görə yaşayanların həyatının heyvanların həyatından fərqlənmədiyini bildirir.

Hiç düşündünmü niçindir yaşamak?
Bir görev yapmak içindir yaşamak.
Er kişiysen görevin neyse, başar
Zövke, eglenceye hayvan da koşar (2, s. 70).

Hüseyn Nihal Atsızın qəhrəmanlıq, vətənpərvərlik ruhunda yazılmış şeirlərinin fövqündə bir Tanrı Dağı durur, Tanrılar və tanrılaşanlar dağı. O Tanrı Dağı ki, orda Kür Sadın yenilməyən ruhu dolaşır və 13 əsrdir ki, Türkləri gözləyir.

Ulu Tanrı ! Kür Şadın yenilmeyen ruhunu
Yüce Tanrı Dağında daha bir az barındır!
Gelecegiz yakında ! Yarın bütün oralar
Demir bileklerdeki çelik kılıçlarındır! (2, s. 43).

Bu şeirin başqa bir bəndində :

Yurt ve şeref uğrunda sen seril de toprağa
Varsın hecbir dudakta anılmasın er adın!
Kan sızarak gögsünden huzuruna varınca
İstirabı dinecek belke o gün Kür Şad`ın (2, s. 44).

Kür Şadın ruhu Tanrı Dağında dolaşaraq yol gözləyir, Tanrı Dağına gedən yol isə çətin yoldur, çünki o yol müqəddəsdir, çətin yollarsa qəhrəmanlarla aşılır.

Yufka yüreklilerle çetin yollar aşılmaz,
Çünki bu yol kutludur, gider Tanrı Dağına (2, s. 47).

Atsızın qəhrəmanları savaş meydanlarında vuruşduğu kimi Atsız da söz meydanında ömrünün əlli ilini savaşmış, bir gün öz ruhunun da Tanrı Dağında yol gözləyən ruhlara qovuşacağına inanırdı:

Arzularım bir okdur, aşar ulu dağları,
Düşdüyü yer uzakda "Dilek" adlı bir saray.
O sarayda bulunca tanrılaşan erleri
Artık gözüm arkaya bir daha dönməyəcək

Hepsi sussa da Kür Şad uzadarak əlini
“Hoş geldin, oğlum Atsız, kutlu olsun” deyecek. (2, s. 48)

Türkdilli ədəbiyyatımızın böyük şairi, fikir və düşüncə adamı Rüstəm Behrudi yaradıcılığında da Kür Şad obrazı xüsusi yer tutur. Azərbaycanın xalq şairi Sabir Rüstəmxanlı Rüstəm Behrudini “Türk ruhunun keşikçisi adlandırır”. (4, s. 35) Akademik İsa Həbibbəyli “Bütövlük və genişlik” məqaləsində yazir: “Rüstəm Behrudi üçün Vətən anlayışının sərhədləri Azərbaycandan Altaylara qədərki məsafələri ifadə edən geniş bir məfhumdur. Onun içində də böyük Turan sevdası yaşayır. O, Turana Vətən deyir, “bir ucu günbatan, biri gündoğan olan bu böyük coğrafiyanın şeirini yazir.” (4, s. 17)

Son yüz ilin Azərbaycan şeirində Rüstəm Behrudi yaradıcılığında olduğu qədər heç bir sənətkarın əsərlərində Türk dünyasının taleyi bu qədər dərinlikdə və genişlikdə öz əksini tapa bilməmişdir.

Göy Tanrı, Qara xan, Oğuz, Güntəkin
Tənəsi içdiyim bir anddan gəlir,
Mənim ruhumdakı bu üsyan, qiyam
Tanrıqurt Metedən, Gürşaddan gəlir. (4, s. 18)

Hüseyn Nihal Atsızın yaradıcılığında Kür Şad obrazı at belində qılınc oynadan, böyük imperiyaya qarşı üsyan edən, öləndən sonra da atının üstündə dimdik dayanan tarixi bir qəhrəmandırsa Rüstəm Behrudi yaradıcılığında mənəvi-ruhi varlığın və bütövlüyün rəmzi kimi çıxış edir. Şairin nəzərində Kür Şad onu yerlə-göylə bağlayan, müqəddəslik nümunəsi ola bilən, sevgi və azadlıq haqqındakı mətləblərini ifadə edən ümumiləşmiş bir obrazdır. Kür Şad geniş mənada Rüstəm Behrudinin estetik idealının təcəssümü olan surətidir. Kür Şad Rüstəm Behrudi üçün günahkar bədəndə əziyyət çəkən təmiz və uca ruhun ideal obrazının poetik ifadəsidir. Kür Şadın adının əksər məqamlarda Tanrı Dağı ilə birlikdə çəkilməsi də bu obrazı böyük ideallarının təcəssümü kimi ilahiləşdirmək-müqəddəsləşdirmək mənalarını ifadə edir (5, s. 23).

Özünü Kür Şadın ruhu adlandıran Rüstəm Behrudi gecələr Tanrı dağında gəzən şəhid ruhlarının onu rahat buraxmadığını, yürd yerlərində sönən ocaqların külünə inandığını “Şaman duası” şeirində dilə gətirir:

Ağacın yarpağına,
gülünə inanıram,
yürd yerində dayanıb,
sönən ocaqların, mən
içində qor saxlayan
külünə inanıram. (6, s. 18)

Şair bir gün bu inandıklarının, içində qor saxlayan külün atəşə çevriləcəyini görmək istəyir, şairi danışdıran içində gəzdirdiyi ruhlardır:

Dil açıb danışan mən deyiləm, yox!
Heç zaman qəbrinə sığmayanların
Ruhudu, danışır mənim dilimcə!

Rüstəm Behrudi içində yaşatdığı ruhların bir gün onu Tanrı dağına, “Qızıl alma”ya aparacağına inanır.

Səni and verirəm içilən anda,
Girmişəm tabuta, ruhum soyuma,
Məni gözləyən var Tanrı dağında
Mənimlə getməsən, məni də qoyma. (6, s. 21)

Və yaxud:

Tanrı dağdan kimdi baxır ?!
Dərdinin ahı darıxır,
Gürşadın ruhu darıxır,
Dur gedək “Qızıl alma”ya. (6, s. 40)

Rüstəm Behrudinin ruhunda bir Turan sevdası var. O, Turana Vətən deyir, gündoğandan günbatana böyük coğrafiyada Kür Şadın, Bilgə Xanın, İltərişin ruhunun dolaşdığını, bu ruhların arxasında yurd, Turan sevdalılarından ibarət bir ordu olan “gözü göydən də mavi, ağzı atəş kimi bir qurdu”, “Mənə üz tut yurda ocaq qurana, Turan deyib Boz qurd kimi durana, sonun yoxdu çevrilməsən Turana-Vətən ! “deyən şairi gözlədiklərini Rüstəm Behrudinin şeirlərində görürük.

Turan-Tilsimi biziynən açılacaq bir ölkə,
Turan-Ruhu sözlərimdə çırpınan bir məmləkət! (6, s. 7)

Kökünə, soyuna və türklüyünə ruhən bağlı olan Rüstəm Behrudi türk irqini məhv olmaqdan xilas edən Kür Şadın ruhunu içində gəzdirərək “istəyinin arxasınca getmək, kökünə dönmək üçün yalvarır:

Səni and verirəm qolça qopuzun
Bitib tükənməyən ölməz dərdinə
Məni öz əslimə, kökümə qaytar,
Qaytar “Bay gölü” ndə təmizlənməyə,
Məni Urmiyada, Savalandakı
Ulu Altaydakı kürkümə qaytar. (6, s. 27)

Və yaxud:

Çın səddində Gürşadam,
Nə süfiyəım, nə dərviş......
Tanrı dağda Bilgəyəm,
Ötükəndə İltəriş. (6, s. 29)

Rüstəm Behrudi “ Tanrı dağdan əsən rüzgar” şeirində yazır:

Tanrı dağdan əsən rüzgar,
Əs, keç zaman dolmadan...
Gürşaddan masallar anlat,
Xəbər ver “ Qızıl alma” dan... (6, s. 59)

Tanrı dağından əsən küləkdən xəbər gözləyən şair “Qızıl alma”nı ulaşılacağı xəyal belə edilməyəcək bir işiq, bir nur adlandırır və deyir: “Nə qədər ki, ona can atacağıq, biz ölməzik ! “Digər tərəfdən də igidləri “Qızıl alma”ya doğru getməyə, Vətənin də Turan olmasına səsləyir:

Nə yatmısan, oyan, igid,
Bir də vaxt ola-olmaya...
Səsimə səs ver, dur gedək,
Dur gedək “Qızıl alma”ya (6, s. 39).

**Nəticə.** Hüseyn Nihal Atsız və Rüstəm Behrudi yaradıcılığında vətənpərvərlik mövzusu priyoritet təşkil edir, vətənpərvərlik mövzusunun ana xətti isə Türkçuluk və Turançılıqdır. Azad düşüncəyə, fərqli təfəkkürə və türkçülük ideyalarına sadiqlik hər iki mütəfəkkirin yaradıcılığında parlaq şəkildə özünü göstərir. Rüstəm Behrudi yaradıcılığında hər şeyə- ota, ağaca, gülə-çiçəyə, insana və bütövlükdə cəmiyyətdə olan hər şeyə fəlsəfi bir baxış var, bu fəlsəfi baxış sözlərdə öz poetik ifadəsini tapır. Şairin yaradıcılığında vətənpərvərlik mövzusu Kür Şad və Bozqurd” un fövqündə əks olunur. Önündə Bozqurd gedən orduların Tanrı dağda gözü yolda olan Kür Şada doğru yol alması Rüstəm Behrudinin dualarındakı ümidlərin, işığın, idealın qayəsidir. Türk millətinin tarixin dolaylarında hansı yollardan necə keçdiyinin, türk millətini məhv olmaqdan xilas edən Kür Şadın xalqa tanıdılmasında Türkün 1300 illik tarixini bilən Hüseyn Nihal Atsızın istər şair, istərsə də nasir kimi nə qədər böyük rol oynadığı danılmazdır. Hətta cənazə mərasimində belə cansız yatanın Atsız deyil, Türk milliyyətçiliyinin bir dövrü olduğu söylənilmişdir. Hüseyn Nihal Atsız və Rüstəm Behrudi yaradıcılığını təkcə Kür Şad obrazı deyil, hər iki mütəffəkirin yaradıcılıqlarının əsasını təşkil edən Türkçülük, Turançılıq və “Qızıl alma”ya qovuşmaq ideologiyası birləşdirir. Professor Ahmet Bican Erculasun Əli bəy Hüseynzadə, Ziya Göyalp, İsmayıl Kaspiralı, Yusif Akçuranı şaman nəvəsi, Rüstəm Behrudini isə zamanlar üstündə yaşayan bir şair, ağzı dualı bir şaman nəvəsi adlandırır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Hüseyn Nihal Atsız. Bozqurdlar ölür, bozqurdlar dirilir. Bakı: Xan, 2020, 526 s.
2. Hüseyin Nihal Atsız. “Yolların sonu” Otüken, İstanbul, 2023, 157 s.
3. Hüseyin Nihal Atsız. Makaleler II, İrfan, İstanbul, 2018, 255 s.
4. Rüstəm Behrudi. “Rüstəm Behrudinin özü haqqında bilmədikləri”, Bakı: Hədəf, 2017, 240 s.
5. Rüstəm Behrudi. Görmədiyimiz adam və yaxud xəzəllərin tüstüsu. Bakı: Qanun, 2015, 172 s.
6. Rüstəm Behrudi. Qızıl alma. Bakı: Xan, 2022, 88 s.
7. Azər Turan. Zəfər paradı və Hüseyn Nihal Atsız // Ədəbiyyat qəzeti, 16.10.2020



**Açar sözlər:** Tanrı dağı, türklük, köləlik, çinliləşdirmək, fəzilət, türk soyu.
**Key words:** God mountain, turkishness, slavery, chineseization, virtue, Turk ancestry.
**Anahtar kelimeler:** Tanrı dağı, Ttürklük. kölelik, çinlileşdirmek, erdem, Türk soyu.


**Character of Kur Shad in the creativity of Huseyn Nihal Atsız and Rustam Behrudi**

**Summary**


İn this article research is conducted on the caracter of Kur Shad, who plays an important role in the works of the great figures of the Turkish nation, Huseyn Nihal Atsız and Rustam Behrudi, who is the hero of Huseyn Nihal Atsız`s prose and poetry, and Rustam Behrudi`s poems. As Huseyn Nihal Atsız said, the name of Kur Shad, who saved the Turkish nation from chineization and saved the Turkish nation from disappearing, forms the main line of the theme of patriotism in the works of these two thinkers.

During the research, we read Huseyn Nihal Atsiz`s novels “Death of Greywolves ”, “Greywolves rise”, Huseyn Nihal Atsiz`s book of poems “The end of the roads”, Rustam Behrudi`s “The man we don`t see or the smoke of the foxes”,” What Rustam Behrudi didn`t know about himself’, “Golden apple”, academician İsa Habibbeyli`s “İnteqrity and expanse”, Huseyn Nihal Atsız`s “ The greatest hero in the world history”, referring to the article written by critic publicist Azer Turan “Victory parade and Huseyn Nihal Atsiz. Huseyn Nihal Atsiz`s “Death of Greywolves” and “Greywolves rise” can be called a heroic epos written in the epic genre of oral folk literature.

Unlike other genres, the events in these epic novels are told prose, and appropriate, pieces of poetry related to the events are told in the language of the Black Poet. Huseyn Nihal Atsiz`s novels and poems were greatly influenced by oral folk literature.

Thus, the poems he wrote in the novel “Greywolves die” consist of quatrains, written in syllabic weight” the first three verses rhyme with each other, and the fourth verses of the other quatrains rhyme with each other. Rustam

Behrudi, whether in heroic or other poems, preferred free verse to express his thoughts more freely and freely and to avoid the limitations of form.

**Hüseyin Nihal Atsız ve Rüstem Behrudi yaratıcılığında Kür Şad karakteri**

**Özet**

Bu makalede Türk milletinin büyük şahsiyetlerinden Hüseyin Nihal Atsız ve Rüstem Behrudinin yaratıcılığında önemli yer tutan, Hüseyin Nihal Atsızın nesir ve nazım eserlerinin, Rüstem Behrudinin şiir eserlerinin kahramanı olan Kür Şad karakteri üzerine araşdırma yapılmakdadır. Hüseyin Nihal Atsızın dediyi gibi Kür Şadın ismi tarih sehifelerinde az görünse de, Türk milletini çinlileşmekden, Türk milletinin soyunun eriyib yok olmakdan kurtaran Kür Şad ismi bu iki yazarın yaratıçılığında vatanseverlik temasının ana hattını oluşturmaktadır.

Araştırma sırasında Hüseyin Nihal Atsız`ın "Bozkurtların ölümü", "Bozkurtlar diriliyor" adlı romanlarına, Hüseyin Nihal Atsız" ın " Yolların sonu" şiir kitapına, Rüstem Behrudi`nin " Görmedigimiz adam ya da hazalların dumanı", "Rüstem Behrudi`nin kendi hakkında bilmedikleri", "Kızıl elma" kitaplarına, akademisyen İsa Habibbeyli`nin " Bütünlük ve genişlik", Hüseyin Nihal Atsız`ın "Cahan tarihi`nin en büyük kahramanı", eleştirmen yayınçı Azer Turan`ın "Zafer geçit töreni ve Hüseyin Nihal Atsız" hakkında yazdığı makalelere atifta bulunmuşdur.

Hüseyin Nihal Atsız`ın "Bozkurtlar`ın ölümü" ve " Bozkurtlar diriliyor" romanları sözlü halk edebiyatının destan türünde yazılmış bir kahramanlık destanı olarak adlandırıla bilir. Diger türlerden farklı olarak bu epik romanda olaylar düzyazıyla anlatılır, yeri geldiginde olaylarla ilgili şiir parçaları Kara Ozan`ın diliyle anlatılır. Hüseyin Nihal Atsz`ın roman ve şiirleri sözlü halk edebiyatından büyük ölçüde etkilenmişdir. Böylece Atsız`ın "Bozkurtlar`ın olümü" romanında yazdığı şiirler hece vezninde yazılmış dortlüklerden oluşur, ilk üç mısrası kendi aralarında, diger dörtlüklerin dörtüncü mısraları kendi aralarında kafiyedir. Rüstem Behrudi`nin ister kahramanlık, isterse de diger şiirlerinde fikirlerini daha özgür bir şekilde ifade etmek, ya da biçimin sınırlamalarından üzak durmak için serbest nazımı tercih etmiştir.

**Rəyçi:** filologoya elmləri doktoru, dosent Eşqanə Akif qızı Babayeva